**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

**Əlyazması hüququnda**

**ORUCOVA CEYRAN ABDULƏZIM QIZI**

# MƏKTƏBƏ HAZIRLIQ QRUPUNDA UŞAQLARDA ƏMƏK BACARIQLARININ FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN SİSTEMİ

**5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: **İramin Namaz oğlu İsayev**
pedaqogika üzrə fəlsəfə doktoru, professor

Rəsmi opponentlər: **Akif Nurağa oğlu Abbasov**
pedaqogika üzrə elmlər doktoru,
professor, əməkdar müəllim

**Şəhla Qasım qızı Əliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Aparıcı təşkilat: Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası

Müdafiə "03___"10_ 2014-cü il, saat____ Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan: AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 34.**

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___"_____ 2014- cü ildə göndərilmişdir

**Dissertasiya şurasının**
**elmi katibi:** **K. R. Quliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hazırda ölkəmizin siyasi, sosial-iqtisadi inkişaf tempinin tələblərinə uyğun yeni təhsil strategiyasının həyata keçirilməsində prioritet məsələlələrdən biri müstəqil və yaradıcı düşünən, həyat mübarizəsinə hazır olan mütəxəssis, şəxsiyyət və vətəndaş formalaşdırmaqdır. Bu məsələnin mühüm pedaqoji problem kimi həll olunması ölkədəki təhsil sisteminin qabaqcıl dünya təcrübələrinə uyğun qurulmasını tələb edir. Həmin problemin optimal həlli isə öz növbəsində məktəbəqədər təhsilin dövrün strategiyasına müvafiq yeni əsaslarla qurulmasından çox asılıdır.

Təsadüfi deyildir ki, respublikamızda məktəbəqədər təhsil xüsusi diqqət yetirilən sahələrdən biridir. Bu diqqətin təzahürü qəbul edilən normativ-hüquqi sənədlərdə də öz əksini tapmışdır. 15 iyun 1999-cu ildə ümummilli liderimiz Heydər Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" təsdiq edildi. Proqramda təhsil sahəsində dövlət siyasətini həyata keçirmək üçün respublikamızda təhsil sisteminin real vəziyyəti təhlil edilmiş və müəyyənləşdirilmişdir ki, "təhsilin bütün sferaları, o cümlədən təhsilin ilk əsas pilləsi olan məktəbəqədər təhsil dövrün tələblərinə uyğun olaraq yenidən qurulmalıdır".[1] Bunun məntiqi davamı olaraq 12 aprel 2007-ci il tarixdə "Azərbaycan Respublikasında Məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010)" təsdiq edildi.

"Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda məktəbəqədər təhsilin rolu və əhəmiyyəti xüsusi olaraq qeyd edilir. Göstərilir ki, "Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir".[2]

Bu, uşağın anadan olandan altı yaşına qədər olan dövrünü əhatə etməklə, onun ətraf aləmi fəal dərk etməsi və cəmiyyətə adaptasiya olunması dövrüdür.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların əmək fəaliyyəti özünəxidmət əməyi, təsərrüfat-məişət əməyi, təbiətdə əmək və əl əməyi kimi növlərə bölünür. Uşaqların əmək tərbiyəsi yalnız o zaman yüksək səmərə verə bilər ki, onlar əməyin bütün növlərində lazımi bacarıq və vərdişlərə

---

[1] Azərbaycan Respublikası təhsil qanunvericiliyi, birinci nəşr. Bakı: Qanun, 2001, s. 28

[2] Təhsil haqqında Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009, s. 26

kifayət qədər yiyələnsinlər. Problemlə tanışlıq göstərir ki, respublikamızın məktəbəqədər təhsil müəssisələrində uşaqlarda ilkin əmək bacarıq və vərdişlərinin formalaşdırılması sahəsində müəyyən təcrübə toplansa da, indiyədək bu sahədə yazılmış pedaqoji və metodik ədəbiyyat işin səmərəli təşkili üçün yetərli deyildir.

Məktəbəqədər müəssisələrdə təlim-tərbiyənin ayrı-ayrı məsələlərinə N.M.Rüstəmova, R.N.Mursaqulova, L.K.Cəfərova, Z.İ.Vəliyeva, X.İ.Səlim-xanova, Z.Ə.Zeynalova və başqalarının tədqiqatlarında müraciət edilmişdir. N.M.Rüstəmovanın tədqiqatında böyük qrupda əmək tərbiyəsi məsələləri araşdırılmış, lakin əmək bacarıqlarının formalaşdırılması məsələsinə səthi toxunulmuşdur.

Tədqiq etdiyimiz problemlə bağlı elmi-tədqiqat işlərindən biri də Z.İ.Vəliyevanın "Yaşlıların əməyi ilə tanışlıq prosesində böyük bağça yaşlı uşaqlarda sovet vətəninə məhəbbət tərbiyəsi" adlı namizədlik dissertasiya-sıdır. Bu tədqiqat işində də əmək bacarıqlarının formalaşdırılması məsələ-sinə toxunulmamışdır.

Mövcud ədəbiyyatın təhlili göstərir ki, təlim-tərbiyə üzrə tədqiqatın xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu tədqiqatlarda məsələyə fəlsəfi (C.Dyui, İ.Kant, T.Mor və b.), psixoloji (A.N.Leontyev, D.B.Elkonin və b.) və pedaqoji (A.S.Makarenko, V.A.Suxomlinski və b.) olmaqla müxtəlif elmi mövqelərdən yanaşılmışdır. Elmi-pedaqoji ədəbiyyatda problemin qoyuluşunu müəyyənləşdirmək üçün məktəbəqədər yaşda əmək təlimi ilə bağlı sovet dönəmi və müasir dövrdə Rusiyada yazılmış dissertasiya və avtoreferatları da araşdırdıq. Rus alimlərindən A.V.Berdışev, V.A.Polya-kov, E.İ.Pometun və başqalarının tədqiqatlarında texnoloji təhsil sisteminin qurulması və inkişafı məsələsindən bəhs olunur. V.Q.Neçayeva, R.S.Bure, L.V.Zaqik, N.M.Konışev, A.A.Krulext və başqalarının tədqiqatlarında isə əsasən məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi məsələlərinə diqqət yetirilmişdir. S.F.Sudarçikovanın "Həyatının beşinci ilində olan uşaqlarda yaşlıların əməyi barədə bilik sisteminin formalaşdırılması"[3] adlı tədqiqat işində uşaqlarda sosial həqiqətlər haqqında bilik formalaşdırılması məsə-ləsinə diqqət ayrılır və sosial hadisələr arasında əməyin yeri xüsusi olaraq qeyd olunur. Lakin müəllif məktəbə hazırlıq qrupu uşaqlarında əmək baca-rıqlarının formalaşdırılması məsələsinə çox səthi toxunmuşdur. İ.V.Jitkonun "Uşaqlarda əməksevərliyin formalaşdırılması prosesində pedaqoji diaqnosti-

[3] Сударчикова С. Ф. Формирование системных знаний о труде взрослых у детей пятого года жизн: Автореф. дис. канд. пед. наук. Ленинград, 1988,15 с.

ka (böyük məktəbəqədər yaş)"[4] adlı dissertasiya işində məktəbəqədər müəssisələrdə əmək tərbiyəsi işinin təkmilləşdirilməsi məsələsinə xüsusi diqqət yetirilmişdir.

Beləliklə, tədqiq və təhlil obyektinə çevirdiyimiz əsərlərdən də göründüyü kimi, bu tədqiqat işləri əmək təlimi ilə bağlı olsalar da, onların heç birində məktəbə hazırlıq qruplarında uşaqlarda əmək bacarıqlarının formalaşdırılması problemi bilavasitə tədqiqat obyekti kimi götürülməmişdir.

Bütün bunları nəzərə alaraq, "Məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılması üzrə işin sistemi" mövzusunu tədqiqat dairəsinə daxil etməyi qarşımıza məqsəd qoyduq.

**Tədqiqatın obyekti** məktəbə hazırlıq qrupunda uşaqların əmək tərbiyəsi prosesidir.

**Tədqiqatın predmeti** məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılması üzrə işin sistemidir.

**Tədqiqatın məqsədi** məktəbə hazırlıq yaşlı uşaqlarda əmək bacarıqlarının formalaşdırılmasının məzmun, forma və üsullarını müəyyən etmək, bunları nəzəri cəhətdən əsaslandırmaq və səmərəliliyini eksperiment yolu ilə yoxlamaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi** ondan ibarətdir ki, -məktəbəqədər müəssisələrin məktəbə hazırlıq qruplarında uşaqlarda əmək bacarıqlarının formalaşdırılması üzrə işi düzgün və səmərəli təşkil etmək məqsədilə xüsusi metodik sistem yaradılarsa, -əmək bacarıqlarının formalaşdırılması metodikasının layihələndirilməsi zamanı əmək bacarıqları anlayışının xarakterik xüsusiyyətləri, strukturu nəzərə alınarsa, uşaqların yaşlarına müvafiq üsul və vasitələrdən səmərəli istifadə edilərsə, bu, uşaqlarda əmək bacarıqlarının düzgün formalaşmasına, onların fiziki sağlamlığının, estetik zövqünün, əqli qabiliyyətlərinin və bir çox mənəvi keyfiyyətlərinin inkişafına, həmçinin onların məktəbə hazırlığına müsbət təsir göstərər.

**Tədqiqatın vəzifələri aşağıdakılardan ibarətdir:-** Əmək tərbiyəsi üzrə işin məzmununu və pedaqoji-psixoloji xüsusiyyətlərini aydınlaşdırmaq;

- Məktəbə hazırlıq qrupunda əmək tərbiyəsinin didaktik əsasalarını, problemin proqram və tədris vəsaitlərində qoyuluşunu öyrənmək;

- Məktəbəqədər təhsil müəssisələrində problemlə bağlı mövcud vəziyyəti müəyyənləşdilmək;

[4] Житко И. В. Педагогическая диагностика в процессе формирования трудолюбия у детей (старший дошкольный возраст): Автореф. дис. конд. пед. наук. Минск, 1990, 16 с.

- Məktəbə hazırlıq qrupunda əmək təlimi üzrə məşğələlərin təşkili zamanı əmək bacarıqlarının öyrədilməsi və uşaqların idrak fəallığının təmin edilməsinin metod və vasitələrini sistemləşdirmək;

- Məşğələdənkənar vaxtlarda əmək tərbiyəsi üzrə işin təşkili formalarını müəyyənləşdirib qruplaşdırmaq;

- Əmək bacarıqlarının formalaşdırılmasında bağça ilə ailənin əlbir işinin forma və metodlarını aşkar etmək;

- Məktəbə hazırlıq qruplarında uşaqların əməyə hazırlıq səviyyəsinin yüksəldilməsi üçün optimal metodlar müəyyənləşdirmək və tətbiq etmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji faktların, hadisə və proseslərin dərk edilməsi, dəyişdirilməsi haqqında nəzəri müddəaların məcmusu təşkil edir.

Tədqiqat prosesində aşağıdakı **metodlardan** istifadə edilmişdir:

- elmi-nəzəri təhlil;
- müşahidə və müsahibə;
- anket sorğusu;
- pedaqoji eksperiment.

Eksperiment müəyyənedici, yaradıcı və yoxlayıcı olmaqla üç mərhələ üzrə aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılması üzrə işin sistemi yaradılmış, məktəbəqədər təhsil müəssisələrində uşaqların əmək bacarıqlarının formalaşdırılmasının optimal yolları, səmərəli formaları, yeni texnologiyalardan istifadə imkanları müasir dövrün tələblərinə uyğun şəkildə təhlil edilərək ümumiləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılması üzrə işin sisteminin müəyyənləşdirilməsi istiqamətində əldə edilən nəticələr uşaq müəssisələrində əmək tərbiyəsi nəzəriyyəsini zənginləşdirməyə xidmət edir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat işinin nəticələrindən məktəbəqədər müəssisələrdə aparılan tərbiyə və təlim prosesində (məşğələdə və məşğələdən kənar vaxtlarda əmək tərbiyəsinin təşkili zamanı), məktəbə hazırlıq yaş dövründə əmək bacarıqlarının formalaşdırılması səviyyəsinin müəyyən edilməsi üçün diaqnostik vasitə kimi istifadə edilə bilər. Tədqiqat materiallarından həmçinin ali və orta ixtisas pedaqoji təhsil müəssisələrində məktəbəqədər yaşlı uşaqların əmək təlimi üzrə proqramlarının, tədris vəsaitlərinin, mühazirə mətnlərinin tərtibində də istifadə oluna bələr.

**Müdafiəyə aşağıdakı müddəalar təqdim olunur:**

1. Məktəbə hazırlıq qrupu uşaqlarında əmək bacarıq və vərdişlərinin formalaşdırılması işində prosesin pedaqoji-psixoloji əsaslarının müəyyənləşdirilməsinin rolu böyükdür.
2. Məktəbə hazırlıq qrupu uşaqlarında əmək bacarıqlarının formalaşdırılmasının məzmun, metod və üsullarının sistem şəklində tədqiqi yüksək nəticə əldə etmək üçün mühüm şərtdir.
3. Məktəbə hazırlıq qrupu uşaqlarında əmək bacarıqlarının formalaşdırılması üçün əməyin təşkili formalarının tətbiqi işin səmərəli olmasını təmin edir.
4. Məktəbə hazırlıq qrupu uşaqlarında əmək bacarıqlarının formalaşdırılması üzrə işin sisteminin müəyyənləşdirilməsi, uşaqların müxtəlif əmək növlərində iştirakına və onlarda əmək bacarıqlarının formalaşmasına daha əlverişli şərait yaradır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları Respublika və Beynəlxalq əhəmiyyətli elmi-praktik konfranslarında məruzə edilmiş, AAK-ın tövsiyə etdiyi nüfuzlu jurnallarında 12 adda məqalə və rezis (o cümlədən 1-i xaricdə olmaqla), 1 metodik vəsait dərc edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsli əhatə edən 9 yarımfəsildən, nəticə, təkliflər və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsədi və vəzifələri, metodoloji əsasları, metodları, nəzəri və praktik əhəmiyyəti göstərilir, müdafiəyə təqdim olunan müddəalar və onların aprobasiyası haqqında məlumat verilir.

Dissertasiyanın **"Məktəbə hazırlıq qrupunda əmək tərbiyəsi üzrə işin mahiyyəti və elmi əsasları"** adlı I fəsli 4 yarımfəsildə ümumiləşdirilmişdir. Fəslin *"Məktəbəqədər təhsil müəssisələrində əmək tərbiyəsi üzrə işin məzmunu, pedaqoji və psixoloji əsasları"* adlanan birinci yarımfəslində əmək tərbiyəsinin – böyüyən nəslin tərbiyəsinin əsas istiqamətlərindən biri, tərbiyənin mühüm tərkib hissəsi olmasından bəhs edilir. Əmək tərbiyəsinin məzmununa əməyin növləri üzrə biliklər, texnika və texnologiya haqqında təsəvvürlər, təhlükəsizlik qaydaları, konstruktiv-texniki və təcrübi bacarıqlar, həmçinin, uşaqların yaşlıların əməyi ilə tanış edilməsi kimi komponentlərin daxıl olduğu göstərilmişdir. Burada əmək tərbiyəsi üzrə işin məzmunu ilə yanaşı onun pedaqoji və psixoloji əsasları

da izah edilmişdir. Bu məqsədlə Y.A.Komenski, C.Lokk, L.S.Vıqotski, A.V.Petrovski, F.N.Şaxtaxtinskaya, Y.Ş.Kərimov, A.N.Abbasov, M.İ.İlyasov kimi pedaqoq və psixoloqların fikirləri araşdırılmışdır. Nəzərdən keçirilən tədqiqatlardan belə nəticəyə gəlinir ki, qabiliyyətlər anadangəlmə olmur, onlar əmək fəaliyyəti prosesində formalaşır. Başqa sözlə, əmək şəxsiyyətin formalaşması üçün şərtdir. Qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri olub, müəyyən fəaliyyətin müvəffəqiyyətlə icrasına imkan yaradır. Bacarıq fəaliyyətdə olan bilikdir, yəni qazanılmış bilikləri tətbiq edə bilmək səriştəsidir. Təlimin məzmununda vərdişlərin də xüsusi rolu vardır. "Vərdişlər məşqlər, təmrinlər, öyrənməyə cəhd sayəsində yaranır və inkişaf edir. Bunlar çox olduqca vərdişlər də möhkəmlənir. Vərdiş insana ömürlük verilmir. O, möhkəmləndirilməsə, vərdişdən düşə bilər."[5]

Burada eyni zamanda məktəbəqədər təhsil müəssisələrində əmək fəaliyyətində məqsədin qoyulması, əmək prosesinin planlaşdırılması, əmək məşğələlərinin təşkili, əməyin nəticəsi və onun dəyərləndirilməsi mərhələlərinin əmək tərbiyəsinin mahiyyətini təşkil etdiyi göstərilir. Əmək fəaliyyətinin məzmununa daxil olan nəticənin dəyərləndirilməsi mərhələsində psixoloji amilin əhəmiyyəti ön plana çəkilir. Belə ki, dəyərləndirmə obyektivlikdən ziyadə, uşaqların (qrupun) ümumi xarakteri nəzərə alınmaqla elə aparılmalıdır ki, onlar ruhdan düşməsin, yeni, daha mürəkkəb işlər görməyə həvəslənsinlər.

Birinci fəslin ikinci yarımfəsli *"Məktəbə hazırlıq qrupunda əmək tərbiyəsinin didaktik əsasları"* adlanır. Didaktik əsaslar dedikdə, əmək bacarıqlarının formalaşdırılması üzrə işin mərhələləri, onların ardıcıllığı, materialın seçilmə qaydası, həcmi, yeri, başqa fəaliyyət sahələri ilə əlaqəsi, uşaqların müstəqilliyinin təmin edilməsi, tərbiyəçinin istifadə etdiyi prinsip, metod, vasitə və yollar nəzərdə tutulur. Burada didaktik prinsiplərin təlimin müvəffəqiyyətlə nəticələnməsini təmin etmək üçün irəli sürülən başlıca tələblər olmasından və bu prinsiplərin ilk dəfə Y. A. Komenski tərəfindən "Böyük didaktika" əsərində verilməsindən bəhs edilmişdir

Bu yarımfəsildə eyni zamanda Azərbaycan pedaqoqlarından M.Mehdizadə, M.Muradxanov, B.Əhmədov, Y.Talıbov, Y.Kərimov, ƏAğayev, N.Kazımov, İ.İsayev, Ə.Paşayev, F.Rüstəmov, A.Həsənov və digərlərinin təlimin prinsip və metodlarına dair aparmış olduqları tədqiqat işlərinə də yer verilmişdir. Qeyd olunmuşdur ki, təlim metodlarının daha da təkmilləşdirilməsi işi sovet pedaqoqlarından B.P.Yesipov, M.A.Danilov, Y.K.Babanski, M.İ.Maxmutov, M.N.Skatkin, İ.Y.Lerner və başqaları tərəfindən həyata keçirmişlər. Burada həmçinin məktəbəqər tərbiyə müəs-

[5] Abbasov A. N. Pedaqogika. Bakı: "Mütərcim", 2010, s.99

sisələrində son zamanlar, təlimin ənənəvi - əyani, sözlü, praktik, oyun metodları ilə yanaşı, fəal (interaktiv) metodlardan da geniş istifadə edilməsindən bəhs olunur.

Yaşlıların əməyi ilə uşaqları tanış edərkən tərbiyəçilərin bir qayda olaraq əyani metodlardan istifadə etmələrindən və yeri gəldikcə alınan biliklərin şifahi (hekayələr, söhbətlər) və praktik metodlarla möhkəmləndirməsinin üstünlükləri vurğulanır. Qeyd olunur ki, uşaqların yaşlıların əməyi ilə tanış edilməsinin daha effektiv üsulları müşahidə və ekskursiyalardır. Eyni zamanda bu işlərin təlimin şəxsiyyətyönümlülük, fəal idrak, inkişafetdiricilik, qabaqlayıcılıq, çeviklik və əməkdaşlıq kimi ənənəvi və müasir prinsiplərinə əsaslanaraq, didaktikanın əyanilik, təcrübi, sözlü və oyun metodlarının tətbiq edilməsi ilə həyata keçirilməsindən də hərtərəfli bəhs olunur.

Dissertasiyanın birinci fəslinin *"Problemin proqram və tədris vasitələrində qoyuluşu"* adlanan üçüncü yarımfəslində məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılması üzrə işin sistemini müəyyənləşdirmək üçün, mövcud proqram və tədris vəsaitlərində problemin qoyuluşu araşdırılmışdır.

Sovet hakimiyyətinin ilk illərindən uşaq bağçalarında Frebel, Montessori və sərbəst tərbiyə sistemləri əsas götürülməklə tərtib olumuş "Uşaq bağçaları və ocaqlarının yaradılması üzrə təlimat" kitabçası tətbiq olunmuş və təhlil obyektinə çevrilmişdir.[6]

1930-1960-cı illərdə A.P.Usova elmi bilikləri məktəbəqədər yaşlı uşaqlar üçün tərtib olunacaq proqramlara daxil edərkən, onların yaş xüsusiyyətləri və anlaq səviyyələrini nəzərə almağı çox vacib hesab etmişdir.[7]

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra, 1998-ci ildə prof. Y.Ş.Kərimovun redaktorluğu altında məktəbəqədər müəssisələr üçün yeni məzmunda milli təlim proqramı hazırlandı. Burada hazırlıq qrupu üçün tərtib edilmiş əmək təlimi proqramı özünəxidmət əməyi, məişət-təsərrüfat əməyi, canlı guşədə və sahədə əmək və nəhayət əl əməyi kimi dörd bölümdən ibarətdir.

Bu gün Azərbaycanın məktəbəqədər təhsil müəssisələrində "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı"na uyğun olaraq, məktəbəqədər təhsil kurikulumunun həyata keçirilməsinə hazırlıq işləri gedir. Bu

---

[6] Дошкольная педагогика. / Под. Ред. В. И. Ядэшко и Ф. А. Сохина. М.: Просвещение, 1986, 416 с., s.112

[7] Yenə orada, s.113

kurikulumda ənənəvi proqramdan fərqli olaraq, uşaqlara təkcə biliklərin deyil, daha çox bacarıqların aşılanması tövsiyə olunur.

Məktəbə hazırlıq qrupu uşaqlarında əmək bacarıqlarının formalaşdırılması üzrə işin sistemini yaratmaq üçün problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşunu da araşdırdıq. Problemə münasibət baxımından mövcud tədqiqatları və elmi-metodik ədəbiyyatı üç qrupa ayırdıq:

I qrup ədəbiyyatda şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafında əmək tərbiyəsinin tərbiyənin digər tərkib hissələri ilə qarşılıqlı vəhdətdə araşdırıldığını və onun səciyyəvi xarakter daşıdığının vurğulandığını;

II qrup ədəbiyyatda valideyn və tərbiyəçilərə məktəbəqədər yaş dövründə uşaqların əmək tərbiyəsinin təşkili istiqamətində elmi cəhətdən köməklik göstərildiyini, əmək tərbiyəsinin metodları və təşkili formalarının açıqlandığını;

III qrup ədəbiyyatın isə məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinə həsr edildiyini aydınlaşdırdıq.

Lakin problemlə bağlı mövcud ədəbiyyatın elmi təhlili göstərdi ki, bu işlərin heç birində məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılması üzrə işin sistemi müəyyənləşdirilməmişdir.

Uşaq bağçaları üçün respublikamızda tərtib olunmuş az miqdarda tədris vəsaitlərində də problemin qoyuluşu araşdırılmış və burada da bizi maraqlandıran məsələnin öz əksini tapmadığı müəyyən olunmuşdur.

Proqram və dərsliklərin, nəzəri pedaqoji və metodik ədəbiyyatın təhlili, aparılmış müşahidələr belə qənaətə gəlməyə əsas verir ki, məktəbəqədər müəssisələrdə əmək tərbiyəsi üzrə tərbiyəçilərin işlərinə istiqamət verə biləcək elmi axtarışlar, tutarlı tədqiqatlar kifayət qədər aparılmamışdır. Müasir dövrlə ayaqlaşan, milli dəyərləri, milli xüsusiyyətləri, reallığı əks etdirən proqram, dərslik və dərs vəsaitlərinin yaradılmasına ciddi ehtiyac vardır.

Dissertasiyanın birinci fəslinin dördüncü yarımfəsli *“Məktəbəqədər təhsil müəssisələrində problemlə bağlı mövcud vəziyyət”* adlanır. Mövcud vəziyyətlə tanış olmaq məqsədilə respublikamızın müxtəlif regionlarının uşaq bağçalarında təlim prosesində, uşaqların oyun və əmək fəaliyyətində iştirak edərək, müşahidə və eksperimentlər aparılmışdır. Məlum olmuşdur ki, tərbiyəçilərin əmək növləri haqqında ümumi məlumatları olsa da, əmək tərbiyəsi istiqamətində apardıqları işlər qənaətbəxş deyildir.

Tədqiqat zamanı Bakının, Ağstafa və Qazax rayonlarının uşaq bağçalarında müşahidələr aparıldı və həmin müəssisələrdə problemlə bağlı müəyyənedici eksperimentlər qoyuldu. İlk növbədə tərbiyəçilərin məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılması üzrə işi necə

təşkil etməsini araşdırmaq məqsədilə 200 tərbiyəçi ilə anket sorğusu aparıldı. Sorğunun nəticələri dissertasiyada öz əksini tapmışdir. Anket sorğusundan belə məlum oldu ki, müəyyən müsbət cəhətlərin olmasına baxmayaraq, tərbiyəçilərin problemlə bağlı məlumat və təsəvvürləri səthidir. Bəzi tərbiyəçilər məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının, xüsusilə də təbiətdə əməklə bağlı bacarıqların formalaşdırılmasını lazım bilmirlər. Əl əməyi ilə bağlı məşğələlərdə isə taxta və parça materiallar ilə işə çox az yer ayırırlar.

Müəyyənedici mərhələdə məktəbə hazırlıq qrupu uşaqlarının əməklə bağlı bacarıqlarının səviyyəsini müəyyən etmək üçün bilavasitə uşaqlarla sorğu aparıldı. Sorğuda Bakıdakı 12, 19, 38 nömrəli bağçalarda, özəl "Təbəssüm" uşaq bağçasında, həmçinin Ağstafa rayon Poylu və Kolxəlfəli kənd uşaq bağçalarında 156 uşaq iştirak etdi və onlara aşağıdakı suallar verildi:

1. Özün yuyunub-daranmağı və soyunub-geyinməyi bacarırsanmı?
2. Özündən kiçiklərə və yaşıdlarına kömək edirsənmi?
3. Qrup otağının səliqəyə salınmasında iştirak edirsənmi?
4. Təbiət guşəsindəki dibçəklərə və heyvanlara qulluq edirsənmi?
5. Bağçanın həyətindəki bitkilərə qulluq edirsənmi?
6. Oyuncaq düzəldə bilirsənmi?
7. Təbiət guşəsində və məşğələlərdə növbətçilik edirsənmi?

Suallara müsbət cavab verən uşaqların sayı və faizlə ifadəsi cədvəl 1.2-də öz əksini tapmışdır.

**Uşaqların əməklə bağlı bacarıqlarının səviyyəsi**
**Eksperimentdən əvvəl**

Cədvəl 1.2

| **Suallar** | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|---|
| **Cavablar** | 91nəfər | 58nəfər | 75nəfər | 69nəfər | 48nəfər | 61nəfər | 59nəfər |
| **Faizlə** | 58,3 % | 37,4 % | 46,5 % | 44,2 % | 30,7 % | 39,1 % | 37,8 % |

Araşdırmalar nəticəsində məlum oldu ki, bağçaların əksəriyyətində uşaqların heyvanlar haqqında müəyyən təsəvvürləri olsa da, onlar heyvanlara qulluq qaydaları ilə tanış deyillər, bununla bağlı əmək vərdişlərinə də yiyələnməmişlər.

Məktəbə hazırlıq qrupu uşaqlarının əmək növlərinə göstərdikləri maraq səviyyəsini müəyyənləşdirmək üçün 34 nəfər uşaq arasında sorğu apardıq. Sorğunun nəticələri cədvəl 1.3 də öz əksini tapmışdır.

**Məktəbə hazırlıq qrupu uşaqlarının əmək növlərinə göstərdikləri maraq səviyyəsi**
**Eksperimentdən əvvəl**

Cədvəl 1.3

| **Əməyin növləri** | **Özünəxidmət əməyi** | | | **Təsərrüfat- məişət əməyi** | | | **Təbiətdə əmək** | | | **Əl əməyi** | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Maraq dərəcəsi** | yüksək | orta | aşağı | yüksək | orta | aşağı | yüksək | orta | aşağı | yüksək | orta | aşağı |
| **Uşaq sayı** | 21 | 8 | 5 | 22 | 7 | 5 | 6 | 5 | 23 | 8 | 9 | 17 |
| **Faiz göstəricisi** | 61,7 | 23,6 | 14,7 | 64,7 | 20,6 | 14,7 | 17,7 | 14,7 | 67,6 | 23,6 | 26,4 | 50 |

Cədvəldən də göründüyü kimi bağçalarda uşaqların özünəxidmət və təsərrüfat-məişət əməyi növlərinə maraq səviyyələri nisbətən yüksək, təbiətdə əmək və əl əməyi növlərinə maraq səviyyəsi isə xeyli aşağıdır.

Bütün bunlar məktəbə hazırlıq yaşlı uşaqların əmək fəaliyyətinin təşkili üçün düşünülmüş bir sistemin işlənib hazırlanmasının günün mühüm və vacib məsələlərindən olduğunu göstərir.

Müəyyənedici eksperiment xarakterli belə araşdırmalardan sonra Bakıda 12, 19, 38 nömrəli bağçalarda, özəl "Təbəssüm" uşaq bağçasında, həmçinin Ağstafa rayon Poylu və Kolxəlfəli kənd uşaq bağçalarında eksperimental və kontrol qruplar müəyyənləşdirildi. Bu bağçaların məktəbə hazırlıq qruplarındakı uşaqların sayı təxminən bərabər olmaqla, eksperimental qruplarda 185, kontrol qruplarda isə 179 nəfər uşaq var idi.

Dissertasiyanın **"Məktəbə hazırlıq qrupu uşaqlarında əmək bacarıqlarının formalaşdırılması üzrə işin həyata keçirilməsinin imkan və yolları"** adlanan ikinci fəsli beş yarımfəsildən ibarətdir. *"Əmək təlimi*

*üzrə məşğələlərin təşkili və tərbiyə imkanları"* adlı birinci yarımfəsildə bir qayda olaraq, hər bir mövzu üzrə məşğələlərin il ərzində bir neçə dəfə təşkil olunmasından və hər dəfə məşğələnin fəaliyyət dairəsinin genişləndirilməsindən bəhs edilir. Belə ki, təlim prosesində uşaqlara müəyyən biliklər verməklə yanaşı, ona müvafiq bacarıq və vərdişlər də aşılanırdı. Məşğələlərdən isə əsasən uşaqlara yeni əmək bacarıqlarının öyrədilməsi zamanı istifadə edilirdi.

Qrup otağının səliqəyə salınması, süfrənin hazırlanmasına aid vərdişlərin aşılanması, sahədəki ləklərin düzəldilməsi, soğanağın, şitilin və toxumun əkilməsi, həmçinin suvarma kimi müxtəlif əmək prosesləri məşğələ formasında aparılırdı. Şitillər üçün yeşiklərin, quşlar üçün yuvalarının hazırlanması, oyuncaq və kitabların təmiri və s. bu kimi işlər də məşğələlərdə həyata keçirilirdi.

Məktəbə hazırlıq qruplarında uşaqların təbiətdə əmək növünə aid məşğələlər də planlaşdırılmış və bu məşğələlər il boyu həftədə bir dəfə, yay aylarında isə həftədə 2-3 dəfə keçirilmişdir. Məşğələlər əsasən bitkilərin yetişdirilməsinə və heyvanlara qulluq işinə həsr olunmuşdu. Bu zaman silsilə məşğələlərin təşkilinə üstünlük verilirdi. Nəticədə uşaqların əmək bacarıqlarına daha yaxşı yiyələndiklərinin şahidi olduq.

Əmək bacarıqlarının formalaşdırılmasının əsas metodik üsulu elementar fəaliyyətlərin yerinə yetirilmə qaydası və onların ardıcıllığının göstərilməsi olduğundan, nəticə etibarilə uşaqların bitki və heyvanlara qulluq əməyi onların hərtərəfli inkişafı üçün daha aktiv və təsirli vasitəyə çevrilmiş oldu.

Məktəbə hazırlıq qruplarının uşaqları ilə əl əməyi üzrə də məşğələlər təşkil edildi. Əl əməyində kağız və karton, parca, ağac, təbii materiallar və tullantılardan istifadə edilərək, məşğələlərdə müxtəlıf oyuncaqlar (səbət, evcik, durna, kirpi, dovşan, qız və s.) düzəldərkən, uşaqlar alətlərdən istifadə bacarıqlarına və oyuncaqların düzəldilməsi qaydalarına yiyələnmiş oldular. Bu əmək növündə də silsilə məşğələlərin təşkilinə üstünlük verildi. Təbii materiallarla görülən işlər uşaqların təxəyyülünün, fantaziyasının, yaradıcılıq qabiliyyətlərinin inkişafına, qənaətçil olmalarına güclü təsir göstərdi.

Dissertasiyanın ikinci fəslinin *"Məşğələdənkənar vaxtlarda əmək tərbiyəsinin təşkili"* adlı ikinci yarımfəslində işin düzgün qurulmasının səmərəli yollarından bəhs edilir.

Oyun, əmək prosesləri, səhər və axşam fəaliyyəti, növbətçilik və gəzinti zamanı uşaqların əmək tərbiyəsinə əlverişli şərait yaranır. Apardığımız tədqiqat işinin nəticəsi olaraq uşaqlarda əməksevərlik hissinin yaranması üçün rollu-yaradıcı oyunların ümumi mövzulu oyunlardan daha effektiv təəssürat bağışladığının şahidi olduq.

Eksperiment apardığımız bağçaların məktəbə hazırlıq qruplarında uşaqların özünəxidmət əməyinin təşkili formalarından biri də kiçik qrup uşaqlarına elementar bacarıqların öyrədilməsi olmuşdur. Məktəbə hazırlıq qrupunun uşaqları balacaları bu və ya digər bacarıqlara alışdırarkən, onların öz əmək vərdişlərini də xeyli təkmilləşdirdiklərinin şahidi olduq.

Təsərrüfat-məişət əməyi üzrə işlərin həcmi getdikcə artırıldı. Uşaqlarda bu əmək növünə marağın tərbiyəsində mühüm rol oynayan amilin, onların birgə fəaliyyəti prosesində yaranan ünsiyyət olduğu aşkarlandı. Qrup otağının, yaxud uşaq bağçası sahəsinin yığışdırılması zamanı uşaqların tərbiyəçi, dayə, xadimə, bağban ilə sərbəst ünsiyyəti bir çox çətin məsələlərin həlli üçün şərait yaratdı. Kənd yerlərində uşaqlar ekskursiya zamanı yaşlıların əməyinə bağda, bostanda, fermer təsərrüfatında və tarlada gedən iş proseslərində cəlb edildilər. Beləliklə, yaşlılar uşaqların diqqətini ən vacib və maraqlı məsələlərə - iş priyomlarına, əməyin müsbət nəticələrinə, eləcə də rast gəlinən qüsurlara cəlb etdilər.

Eksperiment apardığımız müəssisələrin təbiət guşəsində əməyin təşkilinin aparıcı forması kimi növbətçilikdən istifadə edildi. İl boyu təbiət guşəsinə yeni heyvanlar və quşlar gətirildi. Uşaqlar bu heyvan və quşları müşahidə etdilər, onların davranışları, tələbatları ilə tanış oldular, onlara qulluq qaydalarını öyrəndilər. Nəticədə məktəbə hazırlıq qrupunda təbiətdə əmək növünə maraq göstərən uşaqların sayı xeyli artdı və uşaqların bu əmək növünə daxil olan işlərə aid bacarıq və vərdişləri daha da möhkəmləndi. Bütün bunlar uşaqlarda əmək tərbiyəsi haqqında tam məntiqli, davamlı biliklər sistemi yaratdı, dünyagörüşlərinin genişlənməsinə səbəb oldu.

Uşaqlarla aparılan müşahidələr onların bitkilərə olan maraqlarının artmasına və onlarda müəyyən anlayışların yaranmasına səbəb oldu.

Məşğələdənkənar vaxtlarda uşaqlarla aparılan əl əməyi işləri zamanı başlanğıc mərhələdə uşaqlara ayrı-ayrı oyuncaqların (stol, stul, gəlincik çarpayısı, kirpi, novruz atributları və s.) düzəldilməsi öyrədildi. Daha sonra bu oyuncaqlardan uyğun gələnlərini seçib, bir kompozisiyada birləşdirərək maketlər hazırlandı.

İkinci fəslin *"Əmək bacarıqlarının formalaşdırılmasında bağça ilə ailənin əlbir işi"* adlanan üçüncü yarımfəslində tərbiyəçinin ailə ilə apardığı işin əsas formalarından, pedaqoji biliklərin valideynlərə çatdırılmasından, uşaqlarda əməksevərliyin formalaşması üçün ailədə əlverişli şəraitin yaradılmasının vacibliyi və onun əhəmiyyətindən bəhs edilir. Uşağın ailənin yaşlı üzvləri ilə birgə fəaliyyəti zamanı, yaşlıları yamsılamaqla əmək vərdişlərinə daha tez yiyələnməsindən, məqsədəuyğun iş üsullarını qavramasından danışılır.

Valideynlərin əmək tərbiyəsi haqqında bilik dairəsini müəyyənləşdirmək üçün keçirilən anket sorğusunun cavablarının təhlili göstərdi ki, valideynlərin bir qrupu (205 nəfərdən 80 nəfəri, əsasən ziyalı ailələri) məktəbəqədər yaş dövründə uşaqların əmək tərbiyəsinin mahiyyətini bilirlər. Vəziyyət öyrənildikdən sonra ailə ilə işin təşkilində ailələrin pedaqoji cəhətdən maarifləndirilməsini təşkil etmək, məktəbə hazırlıq qrupu uşaqlarının əmək bacarıqlarına yiyələnmələrinə dair məsləhət vermək, bu mövzuda valideynlər iclası keçirmək və s. bu kimi vəzifələr planlaşdırıldı. Sonra problemin səmərəli həlli üçün, bu sahədə nümunəvi iş təcrübəsi olan ailələrin təcrübəsini öyrənmək və digər valideynlər arasında bu təcrübəni yaymaq, valideynləri uşaq bağçasında əmək tərbiyəsi üzrə aparılan işlərlə tanış etmək, onların bu fəaliyyətlərdə iştirakını təmin etmək kimi işlər də təşkil edildi.

Eksperimental qrupda məktəbə hazırliq yaşlı uşaqların ailədə əmək tərbiyəsinə həsr edilmiş valideyn iclasları çağırıldı. İclasın gedişində tərbiyəçi, valideynləri məktəbə hazırlıq qrupunun əmək tərbiyəsi məsələləri ilə tanış edib, öz qrupundakı uşaqların əmək vərdişlərini xarakterizə etdi.

Uşaqların əmək tərbiyəsində bağça ilə ailənin birgə iş formalarından biri də valideynlərin uşaq bağçasında bina və sahənin abadlaşdırılmasında, tədris, oyun və digər məqsədli avadanlıqların hazırlanmasında konkret köməyə cəlb olunmasıdır.

Eksperiment apardığımız məktəbəqədər təhsil müəssisələrində əmək bacarıqlarının formalaşmasında bağça ilə ailənin əlbir işi uşaqların əmək növlərinə olan maraqlarını daha da artırdı.

İkinci fəslin *"Uşaqların əmək tərbiyəsində yeni interaktiv metodlar və texnologiyalardan istifadə"* adlanan dördüncü yarımfəslində Fəal (interaktiv) təlimin tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusu olmasından, bu təlim metodlarının aşağıda göstərilən müasir prinsiplərə əsaslanmasından bəhs edilir:

1. Şəxsiyyətə yönəlmiş təlim prinsipi.
2. Fəal idrak prinsipi.
3. İnkişafetdirici təlim prinsipi.
4. Qabaqlayıcı təlim prinsipi.
5. Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi.
6. Əməkdaşlıq prinsipi.
7. Dialoji təlim prinsipi.

Bu prinsiplərin həyata keçirilməsi uşaqda səmərəli həyat fəaliyyətinin formalaşması və onun fasiləsiz dəyişən şəraitə uyğunlaşması üçün zəruri olan bacarıqları əldə etməsinə əlverişli şərait yaradır. Bu fakt eksperi-

mentin nəticələrinin aşağıda verilmiş cədvəli ilə I fəslin 1.2 cədvəlinin müqayisəsi zamanı aydın şəkildə ortaya çıxır:

**Uşaqların əməklə bağlı bacarıqlarının səviyyəsi**
**Eksperimentdən sonra**

Cədvəl 2.2

| **Suallar** | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|---|
| **Cavab Faizlə** | 113 nəfər 72,5 % | 87 nəfər 55,7 % | 105 nəfər 67,4 % | 99 nəfər 63,2 % | 82 nəfər 52,6 % | 96 nəfər 61,3 % | 93 nəfər 59,4% |

İkinci fəslin *"Məktəbə hazırlıq qrupu uşaqlarının əməyə hazırlıq səviyyəsinin yüksəldilməsinin optimal imkanları"* adlanan beşinci yarımfəslində məktəbəqədər müəssisələrdə uşaqların əməyə hazırlıq səviyyəsinin yüksəldilməsinin optimal imkanlarını müəyyənləşdirmək üçün, eksperimental qruplarda əmək növləri və onların təşkili formaları uzrə nə kimi işlər aparılmasından, aparılan sistemli işin nəticəsində uşaqların əmək tərbiyəsi üzrə kifayət qədər bilik, bacarıq və vərdişlərə yiyələnmələrindən və məktəbə daha yaxşı hazırlanmalarından bəhs edilir. Qeyd olunur ki, məktəbəqədər yaşlı uşaqların əməyi tapşırıq, növbətçilik və kollektiv əmək formalarında təşkil olunur.

Tapşırıq – özünəxidmət və eləcə də digər əmək növləri ilə bağlı hər hansı bir işi yerinə yetirməyi uşağa həvalə etməkdir. Uşağın yaşına uyğun verilən tapşırıqlar, onun oyundan əmək fəaliyyətinə keçməsinə, məqsədyönlü şəkildə işlər görməsinə imkan verir.

Tapşırıqların bəzi xüsusiyyətlərini (mərhələlərin miqdarı, onların yerinə yetirilmə üsulları, nəticə əldə etmə vaxtı) nəzərə alaraq, onları dörd qrupa ayırdıq.

Birinçi qrupa elə tapşırıqlar daxil edildi ki, onlar sadəcə bir üsulla yerinə yetirilir. Belə tapşırıqlar uşağa ətraf aləmlə daha tez tanış olmağa, çoxlu əşyalar arasında lazım olanı tapmağa imkan verir.

İkinci qrupa nəticəsi görünməyən xüsusi tapşırıqlar daxil edildi. Belə tapşırıqlara aşağıdakılar aid olundu: təbiət guşəsi sakinlərinin yemi olub-olmamasını öyrənmək, müdiri və metodisti məşğələyə dəvət etmək və s.

Üçüncü qrupa isə bir neçə əməliyyatdan ibarət tapşırıqlar daxil olundu. Bu tapşırıqların icrası üçün uşağın müəyyən əmək vərdişləri, görüləcək iş üçün isə əlavə avadanlıqları, alət və vəsaitləri olmalıdır ki, heyvanlara və bitkilərə qulluq tapşırıqları bu qrupa aid oluna bilər.

Dördüncü qrupa nəticəsi dərhal gözə çarpmayan tapşırıqlar aid edildi ki, toxum səpmək, şitil əkmək, gəlinciyin paltarlarını yumaq və s. bu qrup tapşırıqlardandır.

Uşaq müxtəlif məzmunlu əmək tapşırıqlarını yerinə yetirmək üçün müəyyən bacarığa malik olmalıdır. Bunun üçün, o, spesifik əmək hərəkətlərinin, əməliyyatlarının düzgün ardıcıllıqla icra olunması üsullarına yiyələnməlidir. Bu nəticəni əldə etmək üçün eksperimental qruplarda bizim təklifimiz əsasında tərbiyəçi nümayiş və izahatdan istifadə etdi və mənimsənilmiş bacarıqları təkrarlamaqla möhkəmləndirdi. Bununla da tərbiyəçi uşaqların fəaliyyət sferasını genişləndirmiş, onları mənimsənilmiş bacarıqları yeni şəraitdə tətbiq etməyə həvəsləndirmiş oldu. Təcrübələr göstərdi ki, bəzən uşaqlar verilən tapşırığı öz istəkləri ilə yerinə yetirmək istəmirlər. Bu cür hallarda tərbiyəçi görməli olduğu işləri onlara yenidən xatırladaraq, bu işləri nə zaman, harada və necə yerinə yetirəcəklərini bir daha onların yadına salırdı.

Növbətçilik tapşırıqlarla müqayisədə, əməyin təşkilinin daha mürəkkəb formasıdır. Növbətçilikdə uşaqlar görməli olduqları işləri əsasən müstəqil olaraq yerinə yetirirlər. Tərbiyəçi növbətçilərin görəcəyi işləri onlara ümumi şəkildə xatırladır. Müntəzəm tapşırıqlar adətən stolun açılması ilə bağlı olduğundan, eksperimental qruplarda ilin sonunda, yeməkxanada növbətçiliklər təşkil edildi.

Məktəbə hazırlıq qrupu uşaqlarının növbətçiliyi zamanı əməyin məzmununu zənginləşdirmək, işdə müstəqillik və özünüidarəyə tələbkarlığı artırmaqla yanaşı, həm də uşaqların əmək fəaliyyətində birləşdirilməsi formaları da tədricən mürəkkəbləşdirildi. Bu qrupda növbətçiliyin əsas məqsədi, uşaqlarda tapşırılan işə məsuliyyət hissi, kollektivin xeyrinə işləməyə can atmaq, vəzifələri müntəzəm olaraq yerinə yetirmək vərdişləri formalaşdırmaq idi. Uşaqlarda bu kefiyyətləri onların əməkdə müntəzəm iştirakı ilə əldə etmək mümkün oldu.

Məktəbəqədər yaşlı uşaqların əməyinin təşkili formalarından biri də kollektiv əməkdir. Uşaqların kollektiv əməyə müntəzəm olaraq cəlb olunması əməyin təşkilinin müxtəlif formalarından istifadə etməklə təmin edildi. Əməkdə uşaqların birləşdirilməsi zamanı üç formadan – yanaşı əmək, ümumi əmək və birgə əmək formalarından istifadə edildi. Kollektiv əməkdə tapşırığı yerinə yetirərkən uşaqlar bir-birindən asılı olmadan, yanaşı çalışırdılar. Eksperiment qruplarında yeni əmək vərdişlərini formalaşdırarkən yanaşı əmək formasından da istifadə edildi.

Ümumi əməkdə, uşaqların nəinki özünə qarşı, həm də yoldaşlarına qarşı cavabdehlik hissinin, öz istəklərini qrupun tələblərinə tabe etmək

bacarığının tərbiyələndirilməsi üçün əlverişli şərait yarandı. Ümumi əmək zamanı hər bir fərdi nəticənin əhəmiyyəti və onun digər nəticələrlə əlaqəsi yalnız bütün fəaliyyət prosesi başa çatdıqdan sonra üzə çıxır ki, bu da bizə, görülən işin nəticəsini daha düzgün qiymətləndirmək imkanı yaratdı.

Eksperiment zamanı kollektiv əməyin təşkilinin daha mürəkkəb forması olan birgə əməkdən – uşaqların əmək fəaliyyəti prosesində bilavasitə birləşdirilməsindən də istifadə edildi. Uşaqların kollektiv əməkdə bu cür birləşdirilməsinin əsas xüsusiyyəti, onda bir sıra ardıcıl mərhələlərin olmasıdır. Burada hər bir uşaq işi bütövlüklə deyil, onun müəyyən bir hissəsini təşkil edən eyni bir əməliyyatı dəfələrlə təkrarlayaraq yerinə yetirir və bu işi davam etdirmək üçün əlindəki materialı növbəti yoldaşlarına ötürürdü. Məlum oldu ki, birgə əmək fəaliyyəti uşaqlar arasında qarşılıqlı səmimi münasibətlər, ünsiyyət, həmçinin əmək bacarıqlarının formalaşması üçün daha böyük imkanlar yaradır.

Yarımfəslin sonunda məktəbə hazırlıq qrupu uşaqlarının eksperimentdən sonra əməyin müxtəlif növlərinə marağının səviyyəsinin cədvəli (Cədvəl 2.3) verilmişdir. Bu cədvəlin eyni kriteriyaların eksperimentdən əvvəlki göstəricilərinin öz əksini tapdığı 1.3 cədvəli ilə müqayisəsindən də göründüyü kimi, uşaqların bütün əmək fəaliyyətləri üzrə yüksək maraq göstəriciləri səviyyəsi orta hesabla 25-30 % qədər artmışdır. Bizə görə bu fakt eksperimentin əsasında duran fərziyyənin kifayət qədər sübuta yetirildiyinin bir göstəricisi hesab oluna bilər.

**Məktəbə hazırlıq qrupu uşaqlarının eksperimentdən sonra əməyin növlərinə göstərdikləri maraq səviyyəsi**
**Eksperimentdən sonra**

Cədvəl 2.3

| **Əməyin növləri** | **Özünəxidmət əməyi** | | | **Təsərrüfat- məişət əməyi** | | | **Təbiətdə əmək** | | | **Əl əməyi** | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Maraq dərəcəsi** | Yüksək | Orta | Aşağı | Yüksək | Orta | Aşağı | Yük | Orta | Aşağı | Yüksək | Orta | Aşağı |
| **Uşaqların sayı** | 25 | 6 | 3 | 27 | 4 | 3 | 15 | 12 | 7 | 23 | 7 | 4 |
| **Faiz göstərici** | 73,5 | 17,7 | 8,8 | 79,4 | 11,8 | 8,8 | 44,1 | 35,3 | 20,6 | 67,6 | 20,6 | 11,8 |

Aparılan tədqiqatdan aşağıdakı nəticələr əldə edilmişdir:

1.Məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılmasını təmin etmək üçün ilk növbədə onların bu istiqamətdə bacarıq səviyyəsini öyrənmək, sonrakı mərhələlərdə onu nəzərə almaq lazımdır.

2.Məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılması üzrə işin təşkilini, uşaqların gündəlik sosial həyatının özünəməxsus xüsusiyyətlərinə əsaslanmaqla, tədricən genişləndirilmək məqsədəuyğundur.

3.Məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılmasını təmin etmək üçün onların əmək tərbiyəsinə erkən yaşlardan başlamaq lazımdır.

4.Məktəbə hazırlıq qrupunda uşaqlarda əmək bacarıqlarının formalaşdırılması üçün onların gücləri çatan əmək proseslərinə cəlb olunmaları və bu işdə xüsusi fəallıq göstərmələri vacibdir.

5.Uşaqlarda əmək bacarıqlarının formalaşdırılması onların təlimə hazırlanmaları, tərbiyəsi və inkişafına xidmət edir.

6.Əmək bacarıqlarının formalaşdırılması üzrə iş dağınıq, pərakəndə şəkildə deyil, planlı, mikrosistemlərlə getdikdə, hər dəfə əməyin bir sahəsi üzrə iş aparıldıqda, əmək bacarıqları bir-biri ilə əlaqələndirildikdə nəticə səmərəli olur.

7.Məktəbə hazırlıq qrupu uşaqlarında əmək bacarıqlarının düzgün və intensiv formalaşdırılması üçün rəngarəng forma, vasitə, interaktiv metodlar və yeni texnologiyalardan, xüsusi gəzinti və ekskursiyalardan, praktik işlərdən və uşaqların müşahidələrindən geniş istifadə olunduqda səmərəlilik yüksək olur.

8.Məktəbə hazırlıq qrupunda əməyin növləri (özünəxidmət, məişət-təsərrüfat, təbiətdə əmək, əl əməyi) üzrə bilik, bacarıq və vərdişlərin formalaşdırılması işi, əməyin təşkili formalarının hər üçündən (tapşırıqlar, növbətçilik, kollektiv əmək) düzgün istifadə edildikdə daha yaxşı nəticələr verir.

Tədqiqatla bağlı təkliflər:

1. Məktəbəqədər təhsil proqramında (kurikulumda) əmək bacarıqlarının öyrədilməsi üçün, xüsusən də əl əməyi (təbii materiallardan, kağız və kartondan oyuncaqların düzəldilməsi, tikiş işi) və təbiətdə əmək növlərində yeni əmək bacarıqlarının formalaşdırılması üçün nəzərdə tutulan məşğələlərə ayrılan saatların miqdarının artırılması məqsədə müvafiq olardı.

2. Məktəbəqədər müəssisələrdə uşaqların əməyə yaradıcı münasibətlərini inkişaf etdirmək üçün bədii tikmə və təbiət materiallarından oyuncaq-

lar düzəldilməsi üzrə emalatxanaların yaradılması uşaqların bədii-estetik zövqünün inkişafı baxımından məqsədəuyğun olardı.

3. Tərbiyəçilər üçün uşaq bağçasında təbiət gusəsinin yaradılmasına, oradakı bitki və heyvanlara qulluq edilməsinə, uşaqların təbiətdə əməyinə və müşahidələrin təşkilinə aid Azərbaycan dilində vəsaitin yazılması işin səmərəli təşkilinə kömək edə bilər.

4. Bağçada taxta ilə işin aparılması uşaqların təxəyyülünün, təfəkkürünün inkişafı, politexnik biliklərinin artması və nəhayət məktəbə yaxşı hazırlanmasına müsbət təsir etdiyi üçün, taxta ilə iş üzrə emalatxananın yaradılması zəruridir.

5. Bakının bəzi qabaqcıl bağçalarında heyvanat aləmi guşəsinin yaradılması, digər bu guşələrin yaradılmasına imkanı olmayan bağçaların həmin heyvanat aləmi guşəsinə ekskursiyalarının təşkili, oradan çəkilişlər edilib uşaqlara göstərilməsi bu sahədə uşaqların bilik və bacarıqlarının inkişafına müsbət təsir edər.

6. Təhsil Nazirliyinin 10 iyul 2012-ci il tarixli, 1329 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu)"nda ayrı-ayrı əmək növləri (özünəxidmət, məişət-təsərrüfat, təbiətdə əmək və əl əməyi) üzrə bacarıqların formalaşdırılmasına dair ayrıca bənd verilsəydi, daha yaxşı olardı.

Dissertasiyanın əsas məzmunu iddiaçının çap olunmuş aşağıdakı əsəsrlərində öz əksini tapmışdır:

1. Təbiət guşəsində otaq bitkiləri (Metodik vəsait). Bakı: ADPU, 2007, 87 s.

2. Məktəbə hazırlıq qrupynda əl əməyi məşğələlərində "Azərbaycan bədii tikmələri" mövzusunun təlim texnologiyaları // Azərbaycan RespublikasıTəhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2010, №2, s. 171-174.

3. Məktəbəqədər təhsilin pedaqogikası və metodikası fakultəsində əmək təlimi üzrə müasir pedaqoji texnologiyalardan istifadənin sistemi // Pedaqoji Universitet Xəbərləri, 2010, №2, s. 338-341.

4. Məktəbə hazırlıq qrupu uşaqlarının təbiətdə əməyinin pedaqoji sistemi / Azərbaycan Respublikası Təhsil Nazirliyi, Naxçivan Dövlət Universiteti, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Naxçıvan Müəllimlər İnstitutu, Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri mövzusunda Beynəlxalq konfransın materialları, Naxçıvan, 2011, s. 98-101.

5. Otaq bitkilərinə qulluq // Məktəbəqədər və ibtidai təhsil, elmi-metodik jurnal, Bakı, 2011 №3, s. 58-63.

6. Məktəbə hazırlıq qrupu uşaqlarının heyvanat aləmi ilə tanış edilməsi işinin sistemi / Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Pedaqogika elminin inkişafında yeni mərhələ, Beynəlxalq elmi-praktik konfransının materialları, Bakı, 2011, s. 222-227.

7. Məktəbə hazırlıq qrupunda coxillik gülləri yetişdirmə bacarıqlarının formalaşdırılması üzrə işin təşkili / Azərbaycan Respublikası Təhsil Nazirliyi, Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları, Bakı, 2012, s. 308-312.

8. Система работы по уходу за аквариумными рыбами в группе дошкольной подготовки // Высшая школа Казахстана”Международное научно-педагогичекое издание, 1 (1), 2012, с. 47-51.

9. Məktəbə hazırlıq qrupunda kağız evciyin düzəldilməsi texnologiyası. / Azərbaycan Respublikası Təhsil Nazirliyi, Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları, Bakı, Müəllim, 2013, s. 302-306.

10. Məktəbə hazırlıq qrupu uşaqlarının əmək tərbiyəsində yeni interaktiv metodlar və texnologiyalardan istifadə. / Azərbaycan Respublikası Təhsil Nazirliyi, Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları, Bakı, Mütərcim, 2013, s. 405-407.

**Дж. А. Оруджева**

## Система работы по формированию трудовых умений у детей дошкольной подготовительной группы

**Резюме**

Диссертационная работа состоит из введения, двух глав, состоящих из девяти полуглав, заключения и списка использованной литературы.

Во введении дается информация об актуальности темы, об объекте, предмете, цели и задачи исследования, о его методологиических основах и методах, о теоретической и практической ценности рассматриваемых вопросов, о гипотезах и выводах предлагаемых к защите, а также об их апробации.

Первая глава имеет названия «Сущность и научные основы работы по трудовому воспитанию в дошкольной подготовительной группе» и состоит из четырех полуглав. Здесь получило свое отражения содержание работы по трудовому воспитанию в дошкольных учебных заведениях, педагогические и психологические основы этой работы, постановка проблемы в программах и учебных пособиях, а также исследовано современное состояние рассмотренной проблемы в дошкольных учреждениях.

Вторая глава диссертации носящая названия «Пути и возможности претворения в жизни работы по формировании трудовых навыков у детей дошкольной подготовительной группы» состоит из пяти полуглав. В этой главе рассматриваются формы организации труда и методы формирования трудовых навыков во время совместной работы семьи с детским садом при организации работы по трудовому воспитанию как в трудовых занятиях, так и вне таких занятий. При этом указано на важность применения принципов использования интерактивных методов наряду с традиционными методами. Здесь показаны, также, оптимальные методы повышения уровня подготовки к труду у детей рассматриваемой группы, анализируются и обобшаются результаты экспериментальных работ, связанных с темой диссертации.

**J.A.Orujova**

## The work system for forming vocational skills of children of preschool preparatory group

**Summary**

The dissertation consists of the introduction, two chapters including nine sub-chapters, the conclusion and the list of used literature. Information about topicality of the theme, about the subject, objectives and goals, methodological basis, theoretical and practical importance of the research, as well as about the theses defended and their approbation are given in the introduction.

The first chapter is called "The essence and scientific basis of working in vocational education in preschool preparatory group" and it consists of four sub-chapters. The content, the pedagogical and scientific basis of the vocational education in preschool preparatory group, the didactic foundations of vocational education at preparatory group, the definition of the problem in the programme and in training materials are described, the current situation in regards to the problem at preschool education institutions is discussed there.

The second chapter of the dissertation called "Possibilities and ways of implementation of activities on forming vocational skills of children of preschool preparatory group" consists of five sub-chapters. The methods of forming vocational skills through joint efforts of kindergarten and family on organizing vocational education during vocational classes and after-school activities and forms of organizing vocational activities are discussed there. An emphasis was put on applying the principles of using interactive methods along with the traditional ones, optimal methods for increasing the level of vocational preparedness of children of the considered group were shown. This chapter also analyses research experiments and summarizes their results.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**Джейран Абдулазим кызы Оруджева**

# СИСТЕМА РАБОТЫ ПО ФОРМИРОВАНИЮ ТРУДОВЫХ УМЕНИЙ У ДЕТЕЙ ДОШКОЛЬНОЙ ПОДГОТОВИТЕЛЬНОЙ ГРУППЫ

**5804.01-Общая педагогика, история педагогики и образования**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени
доктора философии по педагогике**

**Баку -2014**